*Xatirə Yusifova. Əbdi bəy Qarahisarinin yaradıcılığında sənətkar və şairlər//Əlyazma kitabı Azərbaycan-Türkiyə elmi mədəni əlaqələr kontekstində, 24 oktyabr 2023-cü il, s.217-220.* https://doi.org/10.59849/mbcatr.2023.217

**Orcid: 0000-0002-0986-9437**

**Xatirə Yusifova**
*Xəzər Universiteti*
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
yusifova.xatira@mail.ru

# ƏBDİ BƏY QARAHİSARİNİN YARADICILIĞINDA SƏNƏTKAR VƏ ŞAİRLƏR

**Xülasə**

XIX əsr şairlərindən olan Əbdi bəy Qarahisari Osman oğlu, Ağqoyunlu Şeyx Süleyman Əfəndinin nəvəsidir. Doğum tarixi məlum olmayan şairin şərqi Qarahisarın Avutmuş məhəlləsində anadan olduğu deyilir. Amma şeirlərindən yola çıxaraq onu deyə bilərik ki, Əbdi bəy yaşadığı dövrdə Rusiya-Osmanlı qarşıdurması, Krımın ruslar tərəfindən ələ keçirilməsi, Bosniya və Hersoqovinadakı problemlərin, Berlin Konqresi kimi bir çox tarixi hadisələrin baş verdiyi bir dönəmdə yaşayıb yaratmışdır. İstanbulda təhsil aldıqdan sonra Belqradın keşikçisi Səlim Paşa, Harputun valiləri Hüsrəv Paşa və Mustafa Məzhar Paşanın divan məmurluğunda işləmiş, sonra "Bosniya Vilayət Məclisi"nin baş katibi olmuşdur. 1885-ci ildə şərqi Qarahisarda bidət cəza məhkəməsinin başçısı vəzifəsində çalışarkən vəfat etmişdir. Təbiətcə tarixi keçmişinə, yaşadığı cəmiyyətə, siyasi məsələlərə yad qala bilməyən Əbdi bəy müxtləlif mövzularda şeirlər yazmış mövqe və dərəcələrindən asılı olmayaraq insan həyatının metaforalarına müraciət etmişdir. Şeirlərində zaman-zaman tarixi mövzulara toxunmuş, bəzən şair və sənətkarların həyatını mövzu olaraq işləmişdir. O, Gövhəri, Füzuli, Fəridə xanım, Nabi, Nazif Əfəndi, Nafi, Sami, Veysi Əfəndi və s. kimi şairlər haqqında şeirlər yazmışdır.

**Açar sözlər:** Əbdi, Osman paşa, Füzuli, Veysi Əfəndi, Fəridə, Nazif Əfəndi

**Khatira Yusifova**

# CRAFTSMAN AND POETS IN THE CREATION OF ABDI BEY GARAHISARI

**Abstract**

Abdi Bey Karahisari, one of the 19th century poets, is Osman oglu, the grandson of Aghgoyunlu Sheikh Suleyman Efendi. It is said that the poet, whose date of birth is unknown, was born in the Avutmus neighborhood of eastern Karahisar. But based on his poems, we can say that Abdi Bey lived and created during a time when many historical events such as the Russian-Ottoman conflict, the seizure of Crimea by the Russians, problems in Bosnia and Herzegovina, and the Congress of Berlin took place. After studying in Istanbul, he worked in the divan office of Belgrade guard Selim Pasha, Harput governors Husrav Pasha and Mustafa Mazhar Pasha, and then became the general secretary of the "Bosnian Provincial Assembly". He died in 1885 while working as the head of the heresy penal court in eastern Garahisar. By nature, Abdi Bey, who cannot be alienated from his historical past, the society he lives in, and political issues, wrote poems on various topics and turned to the metaphors of human life, regardless of his position and rank. In his poems, he touched on historical topics from time to time, sometimes he used the life of poets and artists as a theme. He is Govhari, Fuzuli, Farida Khanum, Nabi, Nazif Efendi, Nafi, Sami, Veysi Efendi, etc. wrote poems about such poets.

**Key words:** Abdi, Osman Pasha, Fuzuli, Veysi Efendi, Farida, Nazif Efendi

XIX əsr şairlərindən olan Əbdi, Osman Ağanın oğlu və Ağqoyunlu Şeyx Süleyman Əfəndinin nəvələrindən biridir. Doğum tarixi məlum olmayan şairin Şərqi Qarahisarın Avutmuş məhəlləsində doğulduğu deyilir. İstanbulda təhsil aldıqdan sonra Belqrad keşikçisi Səlim Paşa, Harput valisi Hüsrəv Paşa və Mustafa Məzhar Paşanın divan məmurluğunda işləmiş, sonra Bosniya Vilayət Məclisinin baş katibi olmuşdur. 1885-ci ildə Şərqi Qarahisarda bidət cəza məhkəməsinin başçısı kimi çalışdığı müddətdə vəfat etmişdir. Təbiətcə tarixi keçmişinə, yaşadığı cəmiyyətə, siyasi məsələlərə yad qala bilməyən Əbdi bəy

bu mövzularda şeirlər yazmışdı. Şeirlərində zaman-zaman tarixi mövzulara toxunmuş, bəzən isə siyasi mövzular üzərində işləmiş eyni zamanda məşhur şairlərə şeirlər həsr etmişdir. Əbdi bəy Ankara döyüşü, Plevna döyüşü, dövründən əvvəlki siyasi hadisələr; Uzun Həsən, Osman paşa, Əmir Teymur, Çingiz xan kimi siyasi xadimlər haqqında şeirlər yazıb.

Əbdi bəy Qarahisarinin yaradıcılığında Osmanlı sultanlarından başlamış sənətçilərə qədər müxtəlif şəxslərin adlarını görə bilirik. Əbdi bəy yaşadığı dövrdəki Rusiya-Osmanlı qarşıdurması, Krımın ruslar tərəfindən ələ keçirilməsi, Bosniya və Hersoqovinadakı problemlər, Berlin Konqresi, İslama qarşı hücumlar kimi bir çox hadisələrdən bəhs edərək, müdafiə etdiyi mövqeyi açıq bildirirdi. Şair şeirlərində öz poetik gücünü tərifləyərkən bir neçə şairlərin adını çəkib tərifləmişdi. Şairin mürəttəb "Divan"ından başqa münazirə üsulu haqqında "Napeydâ" adında mənsur bir əsəri də vardır. Bu əsər, şairin Bosniyada olduğu vaxtlarda, şahid olduğu, əmirlərin ədalətsizliklərini mövzu olaraq əhatələyir. Daha sonra bu əsər, İstanbulda risalə şəklinde 76 səhifədən ibarət olaraq 1870-ci ildə Tərəqqi mətbəəsində nəşr edilmişdir. Şairin bundan başqa Ərzurum ləhcəsinin incələnməsinə dair mənzum bir lüğətcəsi bizə məlumdur. İstanbul Universitetinin kitabxanasında saxlanılan bu lüğətcə on beş səhifədən ibarətdir və üzərində "Erzurum Lehçesi" yazılmışdır. 15-ci əsrdə Necati ilə başlayan, 18-ci əsrdə Nədimlə yüksələn "Məhəlliləşmə" hərəkatı türk dilinin və türk ədəbiyyatının öz içindən yetkinləşməsi və milliləşməsi mənasında yerli və xalq təsiri olan bir cərəyandır. Bu dövr ədəbiyyata xalq həyatını gətirmiş, xalq zövqündən, xalq yaradıcılığından cizgilər gətirmişdir. 18-ci əsrdə Nədimdə ifadə olunan "Məhəlliləşmə" hərəkatının davam etmə meyli 19-cu əsrin bəzi şairlərində görülən ən fərqli xüsusiyyətdir. XIX əsr şairi Əbdinin bu cərəyandan çox təsirləndiyini onun "Divan"ındakı demək olar ki, hər bir şeirindən anlamaq mümkündür. Əbdinin qəsidlərindən tutmuş misralarına qədər məhəlliləşmə hərəkatının təsiri altında olduğu, xüsusilə qəzəllərində xəlqiliyə bənzər ifadələrə meylli olduğu, xalq deyimlərini asanlıqla əruz vəzinə uyğunlaşdırdığı görünür. Şeirlərinə hər cür duyğuları müvəffəqiyyətlə çatdıran Əbdi bəy üslubuna görə Divan ədəbiyyatının klassik xəttini izləməkdən narahat deyil. Şəxsi həyatını şeirlərində yazmaqdan heç vaxt qaçmayan şair şeirə öz hiss və düşüncələrini əks etdirən bir vasitə kimi baxır. İş o yerə çatıb ki, mənbələrdə onun peşə həyatı və vəfat tarixindən başqa heç bir məlumat olmadığı halda, "Divan"ında onun həyatı haqqında çox konkret məlumatlara rast gəlmək mümkündür. Möhtəşəm "Divan"ı olan şair mənbələrdə nəzm və nəsr ustadlarından biri kimi qeyd olunur. O, bilikli insan kimi ədəbiyyat tarixində öz yerini tutur. Əbdi bəy şairlərdən Füzuli, Rasih, Nefi, Nabi, Sami, İzzət Paşa, Esad Paşa, Rəşid Paşa və Mir Mahmuddan, nəsr əsərləri arasında Veysidən təsirlənmişdir. Bunlardan Füzuliyə 2, Rasihə 1, Nəbiyə 1, Samiyə 1, Şərif Samiyə 1, Əsəd Paşaya 1, Rəşid Paşaya və Mir Mahmuda 1 nəzirə yazmışdır. Nefini və Veysi tərifləmiş, Nabini də bu təriflərdən məhrum etməmişdi.

**Gövhərı:**

*Şiveyi nəzmı ğəzəl hanı bəlağət anlar*
*Gövhəri qoşma ile mərdi sühəndan olmaz*

Şair, Gövhərini xalq ədəbiyyatı şairi olaraq bəyənmir. Ancaq buradan Gövhərinin, şairin tənqidinə səbəb olacaq qədər divan şairlərinin diqqətini çəkdiyini anlamak mümkündür:

Gövhərinin anadan olduğu yer haqqında dəqiq məlumat yoxdur. XVII əsrin birinci yarısında doğulduğu, tarixı mahiyyətli şeirlərindən anlaşılmaqdadır. Əsil adının "Gevherî tabirdir Mustafa ismim" mısrasından Mustafa, son ıllərdə bəzı araştırmalara görə də Məhəmməd olduğu müəyyən edilmiştir. "Hədiqətüssüədâ ve Töhveyi Xəttatın"da verilən məlumata görə çox səyahət etmiş bir şairdir. (Türk Edebiyatı Ansiklopedisi, 1987: 335)

Şeirlərindən mükəmməl bir təhsil aldığı anlaşılır. Şair hətta Bahri Paşanın "Divan"larının katibi olmuşdur. Vətəndən kənarda olduğu zamanlarda yazdığı şeirlərində, qazilərə xitap etməsi, ""Be!", "Bre!" diyə başlayan laqeyid, soyuqqanlı müraciətləri, igidlik haqqında tərifləri ,sevgilisini bir qalaya bənzətməsi dolayısıyla bir çox şairi da tərif edilmişdir. Aşıq Ömer və Qaracaoğlanın çağdaşı olan aşıq, ən az onlar qədər şöhrət qazanmış, özünü ziyalı ortamlara da qəbul etdirmiş, bəzı şeirləri təzkirələrə daxil edilmişdir. Heca və əruz ilə yazdığı şeirlər arasında heca şeirləri ən uğurlularıdır. Gövhəri, musiqi ile de maraqlanmış, musiqi bəstələmiş, məşhur bir məqam sahibi olmuşdur. "Divan"çası ilk dəfə S. Nizhet Ergun tərəfindən nəşr edilib. (Türk Edebiyatı Ansiklopedisi, 1987: 335)

**Füzuli:**

*Gülzarı hüsnə şivənümadır o gül bədən*
*Bir xalının bahası degil kişvəri Yəmən*

*Heyranı ruyı ali imiş bərgi yasəmən*
*Pəjmürdeyi xəyal dahi gülşəni Adən*
*Xəṭṭın baharı hüsnə çəməndir dedim dedi*
*Reyḥanı bagı ruhı rəvanın durur sənin*
*Şarkı seylabı şərabım bilməzəm dərya nədir*
*Ṣormasın canan bəni huşyar ya divanədir*
*Eşqi yarə şahnı sinəm gərçi mehman-hanədir*

*Eylə sərməstim ki idrak etməzəm dünya nədir*
*Bən kiməm saqi olan kimdir meyü şəhba nədir*
*Macərayı eşqi idrak etməmikən Əbdiya*
*Pəyrevi kilki Füzuli olmaga məna nədir*

Türk İslam ədəbiyyatının zirvəsi, klassik türk ədəbiyyatının ən böyük şairlərindəndir. Şair, Füzulinin gəzəl və müxəmməsinə nəzirə yazmış və onun şairlik qüdrətini bir qəzəlində xatırlamışdır.

**Fəridə Xanım:**

*Sipihrayinə rahı cevrü azara xitab etdin*
*Sərayı sinei nahadımı yıkdın xarab etdin*

Kastamonludur. Rəşid Əfəndinin qızı olub katib Raif Əfəndinin həyat yoldaşıdır. 1853/54-cü ildə İstanbula gəlib şeir və inşa ilə şöhrət qazanmışdır. (Mehmed Süreyya, 1996, C.2: 186)

Şairin mərsiyə yazdığı Fəridə xanımın, yuxarıda haqqında məlumat verdiyimiz Fəridə xanım olduğuna dair hər hansı bir məlumata sahip deyilik. Yalnız, haqqında məlumat verilən Fəridə xanım ilə Əbdinin eynı zamanda yaşamış olması bəhs edilən insanların eynı insan olması ehtimalını bizdə oyatmaqdadır. Fəqət bu mövzuda bir bilgiyə sahip deyilik.

**Nabi:**

*Kimi Veysi kimi Nabi derlər*
*Hünər ancak buna Vəhbi derlər*
*Sipihr-ayinə rahı cevrü azara xitab etdin*
*Serayı sineyi naşadımı yıkdın xarab etdin*

Şair, Nâbini tərif ile anmıştır:

Urfalıdır. IV Mehmed zamanında (1648-1687) İstanbula gəlib Musahip Mustafa Paşaya intisap edərək kəndxuda olmuştur. Onun vəfatından sonra həccə gedib qayıdanda Hələbdə qalmışdır. Mehmed Paşa, Hələb valisi olduğunda onun söhbətlərini bəyənmiş 1710-cu ildə vəzirliyə gəldiyində onu Anadoluya muhasib təyin edir. Sonra süvari sözcüsü olub. 10 aprel 1712-də vəfat etmiştir. Üsküdarda Miskində dəfn edilmişdir. Üç dilde mahir danışmağı bacarırmış. Əsərləri: Siyeri Veysiye Zeyl, Kamaniçe Gazanamesi, Töhfətül-Harameyn, Hayriye, Hayrabad, Münşeat, Divanı dövrümüzə qədər gəlib çatmışdır. (Mehmed Süreyya, 1996, C.5: 193).

**Nazif Əfəndi:**

*Nazif Əfəndi kibi bacenahı da vardır*
*O da anın kibi olsa ser-amedi zurefa*

Evkafın məmurlarından biri olmuşdur. Haremeyn vəqflərinin müdiri, 1836-37-ci illərdə vəqf muhasibi olub, 1840-cı ilin avqustunda işdən ayrılıb. Daha sonra Vəqflər Məclisi üzvü və əyalət idarələrində çalışmış, nəhayət Haremeyni Şərifeynin müdiri olmuşdur. 6 mart 1865-ci ildə vəfat etmişdir.

Hayri Əfəndi üçün yazdığı qəsidəsində şair Nazif Əfəndini yad etmişdir: (Mehmed Süreyya, 1996, C.5: 211).

**Nefi:**

*Cahana Nefiyi ateşzeban kibi şair*
*Nə gəldi bəlkə nə sonra gəlir dedi zurafa*

Ərzurumludur. O, İstanbula gəlib məmur və mədən işçisi, sonra isə mühasib kimi çalışmışdır. 1635-ci il yanvarın 27-də Bayram Paşanı həcv etdiyinə üçün öldürülmüşdür. O da satirada bənzərsiz bir ustad şairdir. Haqqında deyilirdi: "Siham-ı Kazasıya göydən endi, Nefi dili ilə Allahın bəlasını çəkdi". Onun türk və fars dillərində "Divan" və "Sihəm-ı Kaza" adlı satirası var. Şair onun poetik qüdrətini təriflƏmək üçün Nəfinin adını çəkir. (Mehmed Süreyya, 1996, C.5: 223).

**Sami:**

*Bimarı eşq hikməti Loğmanı neyləsin*
*Cismi dünim kahkariyi canı neyləsin*
*Atəşpərəst cövhəri imanı neyləsin*
*Çarxı leim şahibi irfanı neyləsin*
*Nadan olan harifi sühandanı neyləsin*

Rasih İbrahim Əfəndinin qardaşıdır. Əndərundan təqaüdə çıxmışdı. 1844-cü ildə vəfat etdi. Sami ustad şairdir. Əbdi bəy Saminin qəzəlinə nəzirə yazmışdır. (Mehmed Süreyya, 1996, C.5: 107).

**Veysi Əfəndi:**

*Nazımda saniyi Nabi nəsirdə Veysidir*
*Hünərlə zatını etmiş mümasili büleğa*

Alaşehirdəndir. O, Qazı Mehmed Əfəndinin oğlu və şair Makalinin bacısı oğludur. O, əvvəllər qazi olub, sonra Misir valiliyində Mehmed Şərif Paşanın məclis katibi, Əli Paşanın Engürüs yürüşü zamanı isə ordu hakimi olub. Daha sonra yeddi dəfə Üsküp hakimi olmuşdur. 1627-28-ci ildə taxtdan salınmış və həmin ildə də rəhmətə getmişdir. Elmdə, təhsildə, şeirdə, inşaatda ustaddır. Söhbətləri, bəlağəti əsərləri qədər gözəl idi. Əsərləri arasında Kamusun Sıhabı Cevhəriyə etirazına cavab verən ərəbcə lüğət kitabı, Dürretül-Amel, Fütuhı Mısri, Habnameyi Veysi, mükəmməl Divan və Münşəâtı var. Şair Veysinin nəsr istedadını yüksək qiymətləndirmişdir. (Mehmed Süreyya, 1996, C.5: 292).

İstifadə ettiyimiz şeirlər, indiyə qədər tədqiq edilməyən Əbdi bəy Qarahisarinin "Divan"ındandır.

## ƏDƏBİYYAT:


1. Abdi Karahisari, Divan, İstanbul Üniversitesi Kütüphanesi, T 207.
2. Devellioğlu, Ferit (2004): Osmanlıca-Türkçe Ansiklopedik Lûgat, Aydın Kitabevi, Ankara.
3. Mehmed Süreyya. (1996). C.5: 223
4. Türk Edebiyatı Ansiklopedisi, (1987): 335